# Prokurorluq işçilərinin peşə bayramında

Ümummilli lider Heydər Əliyev 17 iyul 1998-ci ildə oktyabr ayının 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə sərəncam imzalamışdır.







Hər il olduğu kimi, bu il də rayon prokurorluğunun işçiləri həmin gün özlərinin peşə bayramlarını qeyd etmişlər. Bayram tədbirində rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri də iştirak edirdilər.

Saat 10.00-da prokurorluq əməkdaşları və tədbirin digər iştirakçıları şəhər mərkəzindəki Heydər Əliyevin abidəsi önünə gəldilər. Rayon prokuroru Məqsəd Orucov və tədbir iştirakçıları ulu öndərin abidəsi önünə tər qızılgül dəstələri qoydular və dahi şəxsiyyətin ruhuna öz ehtiramlarını bildirdilər. Mərasim iştirakçıları daha sonra Heydər Əliyev Mərkəzinə gəldilər. Onlar Mərkəzdə əvvəlcə ulu öndərin büstü qarşısına tər güllər düzdülər və onun xatirəsini hörmət və ehtiramla yad etdilər.

Sonra ulu öndərin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış oldular.

**Oqtay MƏMMƏDOV.**

# Beynəlxalq Ahıllar Günü qeyd olunmuşdur

Qəbələdə Beynəlxalq Ahıllar Gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymuşlar. Sonra tədbirin rəsmi hissəsi şəhər 1 saylı tam orta məktəbin akt zalında davam etdirilmişdir.





Tədbirdə BMT-nin Baş Məclisi tərəfindən ahılların müdafiəsi məqsədilə 1992-ci ildə qəbul edilmiş qətnaməyə əsasən dünyada hər il oktyabrın 1-nin Beynəlxalq Ahıllar Günü kimi qeyd olunduğu bildirilmişdir. Eləcə də ölkəmizdə ahıl vətəndaşların sosial problemlərinin öyrənilməsi, onların ehtiyaclarının həll edilməsi istiqamətində əməli tədbirlərin həyata keçirildiyi vurğulanmış, 2001-ci il iyun ayının 22-də "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunduğu diqqətə çatdırılmışdır.

Çıxış edən ahıllar onlara göstərilən dövlət qayğısından razılıq etmiş, ağsaqqalların bu gün cəmiyyətimizdəki mövqeyindən söz açaraq, gənc nəslin yaşlı insanlara daha çox ehtiyacının olduğunu bildirmişlər. Yığıncaqda rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev, Rəna Mahmudova, təhsil şöbəsinin məsul işçisi Arifə Bayramova, təqaüddə olan əməkdar müəllim Fərman Əzizli, ağsaqqallardan Vaqif Əzimov, Tofiq Ağayev və rayon icra hakimiyyətinin nümayəndəsi Zahid Əfəndiyev çıxış etmiş və ahılları əlamətdar gün münasibətilə təbrik etmişlər.

**«Qəbələ».**

**Fotolar İ. Vəlizadənindir.**

# 12 il öncə bu günlər

Oktyabrın 15-də möhtərəm cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 12-ci ili tamam olur. Düz 12 il öncə Azərbaycan xalqı böyük bir seçim qarşısında idi. Ulu öndər Heydər Əliyevin 2003-cü ilin oktyabrın əvvəllərində Azərbaycan xalqına müraciəti doğru seçimə yol göstərən yeni bir mayak rolunu oynadı. Müəyyən tərəddüd edənlər də ulu öndərin varisi İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin ən düzgün seçim olduğuna əmin oldular.

Azərbaycan Respublikasının prezidentliyinə namizəd İlham Əliyev həmin günlərdə ölkəmizi qarış-qarış gəzir, əhali ilə görüşür, Respublikanın Baş Naziri kimi mühüm obyektlərin açılışında iştirak edirdi. 2003-cü il oktyabr ayının 3-də möhtərəm cənab İlham Əliyev Qəbələyə gəldi. Ulu öndərin layiqli davamçısı dahi rəhbərin ənənəsinə uyğun olaraq bir başa Yenikənd və Bılıx kəndləri arasındakı çayın üzərində yeni salınmış, 12 kəndi birləşdirən uzunluğu 135 metrlik körpünün açılışında iştirak etmək üçün həmin əraziyə getdi. Ətraf kəndlərin minlərlə sakini yol boyu və körpünün salındığı ərazidə xalqımızın yeni liderini sonsuz sevinc və alqışlarla qarşıladılar. Möhtərəm cənab İlham Əliyev 20 mindən çox sakinin istifadə edəcəyi və uzun illər həsrətində olduqları körpünün açılışını həyata keçirdi. Bura toplaşan sakinlərlə çox mehriban söhbət etdi, hal əhval tutdu, əhalinin güzəranı ilə, məşğuliyyəti ilə maraqlandı.

Qeyd edim ki, Qəbələ—Ağdaş magistral yolundan həmin körpüyədək olan 20 kilometrlik çınqıl və torpaq yol cəmi 1 həftə içərisində asfalt yolla əvəzləndi.

Körpünün açılışı və əhali ilə görüş başa çatdıqdan sonra möhtərəm cənab İlham Əliyev Qəbələ şəhərindəki stadiona gəldi. Həmin vaxta qədər 30 ilə qədər rayonda kütləvi tədbirlərin təşkilati işlərində iştirak etmişdim. Ancaq həmin günkü kimi kütləvi, coşqun, təntənəli və əhalinin çox iştirak etdiyi tədbir görməmişdim. Stadiona və ətrafına ən azı 40 min nəfər insan toplaşmışdı. Tədbiri toplaşanların bitib tükənməyən alqışları altında Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri mərhum Əhmədiyyə Məmmədov açdı. Ali qonağı salamladı. Tədbirdə millət vəkili Fəttah Heydərov, ictimai fəal Sədaqət Bayramova, müəllim Telman Abduxalıqov çıxış etdi. Söz Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan Respublikası Prezidentliyinə namizəd möhtərəm cənab İlham Əliyevə verildi. Xalqımızın yeni, gənc lideri İlham Əliyevin hər cümləsi toplaşanların ardı-arası kəsilməyən alqışları ilə qarşılandı. Sonra möhtərəm cənab İlham Əliyev tribunadan düşərək əhaliyə yaxınlaşdı, imkan olanlarla əl sıxaraq görüşdü, söhbət etdi. Bu isti görüşün xatirələri qəbələlilərin daimi yaddaşına köçdü.

**Qüdrət SƏMƏDOV.**